# Dünya şöhrətli din xadimi

*Sabir RUSTƏMXANLI*

Bu gün Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB ölkələri dinlərarası Siyasi Şurasının həmsədri, İordaniya Kral Akademiyasının həqiqi üzvü, tarix elmləri doktoru, professor Hacı Allahşükür Paşazadənin doğum günüdür. Eyni zamanda bu il onun Qafqaz Müsəlmanlarının Şeyxülislamı seçilməsinin 25 ili tamam olur. Əsrin dörddə biri az vaxt deyil. Hacı Allahşükür Paşazadə bu müddət ərzində müsəlman dünyasının çox mürəkkəb bir bölgəsi olan Qafqazda İslamın ucalığı, şöhrəti, kənar təzyiqlər qarşısında duruş gətirə bilməsi, qonşu xristian ölkələrindən davamlı olaraq axıb gələn anti-islam təbliğatının qarşısında islam mədəniyyətinin və islam əxlaqının gözəlliklərinin nümayiş etdirilməsi sahəsində çox böyük xidmət göstərmişdir. Biz Hacı Allahşükür Paşazadə ilə eyni nəslin adamlarıyıq. Eyni çətinliklərdən keçmiş, eyni ağrı-acıları, sevinc və kədəri yaşamışıq. Qafqaz Müsəlmanları İdarəsinə başçılıq etdiyi bütün illər ərzində biz onunla dost olmuşuq, onu bir dini rəhbər, ziyalı, alim, insan kimi tanımaq, müşahidə etmək imkanım olub. Və yaxından tanıdıqca ona hörmətim artıb.

Hacı Allahşükür Azərbaycanın ənənəvi olaraq dinə bağlı bir kəndində, halal bir müsəlman ailəsində dünyaya gəlib. Bir dəstə bacıdan sonra doğulduğuna görə adını Allaha şükranlıq əlaməti olaraq vermişlər. Sonra sovet rejiminin dinə qarşı kəskin mübarizə apardığı illərdə onu dini təhsilə yönəltməklə sanki bu gənci Tanrıya tapşırıblar ki, onu qorusun və ucaltsın. Tanrı da Şeyximizin ata-anasının dualarını eşidib. Sonra Allahşükür Paşazadə Buxarada dini təhsilini davam etdirib. Mən onun oxuduğu qədim mədrəsəni görmüşəm. Bu mədrəsə klassik üslubda tikilmiş qapalı bir binadır. İllər uzunu bu binada yaşayıb oxumağı yalnız bütün ruhuyla Tanrıya bağlı olan, dustaqxanaya bənzər bir yerin daşını-divarını, soyuq və yarıqaranlıq hücrələrini ürəyinin və Tanrıya sevgisinin işığıyla doldura bilən adamlar bacarar. Allahşükür Paşazadə Buxara mədrəsəsindən kamil bir islamşünas, mükəmməl din təhsili olan bir alim kimi qayıtmışdır. Ancaq dediyimiz kimi mürəkkəb bir bölgədə müsəlmanların Şeyxülislamı olmaq üçün yalnız alimlik, yüksək din bilgisi, iman əhli olmaq yetərli deyil. Bu iş də Allahın iradəsinə bağlıdır. Müxtəlif dillərdə danışan, çeşidli tarixi ənənələr üzərində yetişmiş xalqlar arasında dindarların lideri olmaq üçün həm də son dərəcə yüksək insani keyfiyyətlər, kindən-küdurətdən uzaq bir ürək, böyük şəxsiyyət, möhkəm xarakter, xeyirxahlıq, təmiz bir həyat yolu, saf, işıqlı, yaradıcı bir düşüncə, böyük ilahi sevgisi tələb olunur. Qafqaz dindarları gənc Allahşükür Paşazadədə bütün bu xüsusiyyətləri görmüşdülər və onu özlərinin şeyxi seçmişdilər.



Şeyxin doğulduğu kəndin qəbiristanında keçirtdiyim bir hissi də bildirmək istəyirəm. Bura adi qəbiristanlığa bənzəmir. Yüz illərlə yaşı olan azad, dağdağan ağacları qəbiristanlığı dünyadan ayıraraq bura bir ev, canlı bir həyat rahatlığı veriblər. Qəbirüstü daşlar yüz illərin xatirələrini, adlarını yaşadır. Ağacların arasında dolaşan xəfif rüzgar ölümsüzlük nəğməsi kimi dinclik gətirir. Bir sözlə, şeyxin ulularının yatdığı qəbiristanda da bir qutsallıq havası var.

Hacı Allahşükür Paşazadə təkcə Azərbaycanda deyil, bütün islam dünyasında tanınan və sevilən adamdır. Bunun səbəbləri çoxdur. Ən mühüm səbəblərdən biri isə onun öz xarakterindən gələn xeyirxahlıq, insansevərlik və barışdırıcılıq qabiliyyətidir. Ünsiyyət yarada bilmək insanın ali vəzifəsidir və insan adı da burdan gəlir. Şeyximiz bu baxımdan müxtəlif təriqətlər, düşüncələr, yollar arasında körpü salmağı, adamları yaxınlaşdırmağı, ziddiyyətləri və düşmənçilikləri aradan götürməyi bacarır. Onun bu xüsusiyyəti Azərbaycanda dini toleyrantlığın nümunəvi bir səviyyəyə qalxmasına yardım etmişdir. Hacının barışdırıcılıq görəvi İslam dünyası çərçivələrindən çıxaraq ona həm də başqa dinlərin dindarları arasında böyük nüfuz qazandırmışdır. Bu baxımdan onun Roma Papası, Pravoslav Kilsələrinin başçıları, Yəhudi dindarları ilə əməkdaşlığı bu gün müxtəlif ölkələrdə qarışıq şəkildə yaşayan və müxtəlif dinlərə bağlı olan insanların üzləşdikləri problemlərin həllinə yardım edir.

Allahşükür Paşazadə sadə bir din adamı deyil, Allah adamıdır. O, ən mürəkkəb vəziyyətlərdə Allahın rəhminə sığınaraq vətəninin və xalqının haqq səsini dünyaya çatdırmağa çalışmışdır.

1988-ci ildən üzü bəri baş verən hadisələrdə Azərbaycanın dövlət başçılarının, bəzi siyasi liderlərinin yanıldığı məqamlarda belə şeyx xalqın və ədalətin yolunu tutaraq heç vaxt yanılmamışdır. Bəzən Hacı Allahşükür Paşazadəni dövlət və siyasətlə yaxınlıqda ittiham edirlər. Lakin mən bu ittihamları doğru saymıram. Din dövlətin işinə qarışa bilməz. Lakin dövlətin yüksək mənəviyyata, dinə, vətəndaşların əqidə bütövlüyünə ehtiyacı olduğu kimi dinin də dövlət himayəsinə ehtiyacı var. Dövlət qındır, din qılınc. Həm bir yerdədirlər, həm ayrı. Bir-birini kəsmir, amma bir-birindən də ayrılmırlar.

Hacı Allahşükür Paşazadə Azərbaycanda ibadətgahların dağıdıldığı, şəriət qaydalarının yasaq edildiyi, məscidlərin barmaqla sayılan qədər az olduğu vaxtdan üzü bəri dinə münasibətin çox sifətlərini görüb. Müsəlmançılığı total şəkildə sıxışdıranların sonralar məscidlərdə diz çöküb Allaha yalvardıqlarının şahidi olub. Ateizm professorlarının "tövbə edərək" ilahiyyət mütəxəssisi kimi ona üz tutduqlarını izləyib. Din düşməni olan rejimdən qoparaq müstəqilləşən bir ölkədə dindən xəbərsizlərin din dəllallarına çevrilməsini izləyib. Əlinə halal pul dəyməyənlərin var-dövlətini məscid tikintisi ilə halallığa çıxartmaq cəhdlərinin şahidi olub. Bütün bunların hamısını səbr və təmkinlə, təbəssümlə izləyib, yola verib və Qafqaz Müsəlmanları İdarəsini həmişə bu oyunların üstündə saxlamağa çalışıb. Onu siyasətə qatmaq istəyənlər siyasi mədəniyyəti aşağı olan adamlardır. Bugünkü texniki vasitələrdən istifadə edərək səlib yürüşünü savaş meydanlarından informasiya və mədəniyyət meydanlarına çəkənlər və islamı gözdən salmaq üçün ağlasığmaz miqdarda vəsait xərcləyənlər bu müqəddəs dinin dayaqlarını sarsıtmaq üçün ilk növbədə onun liderlərini, seçmə alimlərini hədəf seçir və bu iyrənc oyunda heç bir riyakarlıqdan çəkinmirlər. Azərbaycanda Qafqaz Müsəlmanları İdarəsi ilə Dini İşlər Komitəsini üzüzə qoymaq, din xadimlərini məişət söz-söhbətlərinə bulaşdırmaq meylləri də dolayı yolla bu səlib missionerlərinin fəaliyyətinə bağlıdır. Bunu dərk etmək o qədər də çətin deyil.

Müstəqil Azərbaycan dövlətinin İslam Konfransı ölkələrinin sırasına növbə-filan gözləmədən birbaşa daxil olması da Hacı Allahşükür Paşazadənin bu ölkələrdəki böyük nüfuzu ilə bağlıdır. Və mən Konfransın iştirak etdiyim toplantılarında dəfələrlə bunun şahidi olmuşam.

Hacı Allahşükür Paşazadə ömrünün ən kamil və gözəl illərini yaşayır. İnanıram ki, o müqəddəs dinimizin şöhrətlənməsi, yayılması, çağdaş dünya qurumuna uyğun təbliği, islam mədəniyyətinin yüksəlişi, maarifçiliyin genişlənməsi, eləcə də Azərbaycan xalqının bir sıra mənəvi və tarixi problemlərinin həllində bundan sonra da yorulmadan, cəfakeşliklə fəaliyyət göstərəcəkdir. Hörmətli şeyximizin ad gününü təbrik edir və ilahidən ona möhkəm cansağlığı arzulayıram.